# ŞUŞA VƏ ƏTRAF MEŞƏLƏRİN ƏSAS DENDROFLORASI

**Əlisahib Hüseynli**

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidməti, alisahib1013@gmail.com*

Şuşa şəhəri və ətraf meşələr Kiçik Qafqazın mərkəzi hissəsində, dəniz səviyyəsindən 500-2000 m hündürlükdə yayılmışdır. Ərazinin meşələri ot örtüyü, dendroloji və tipoloji cəhətdən zəngindir.

Təhlil olunmuş ədəbiyyat mənbələrinə görə, Şuşaətrafı ərazilərdə əsasən *Carpineto-Quercetum* (*Q.Iberica*) *herbosum, Carpineto-Quercetum. graminosum, Carpinetum-trifoliosum, Quercoto-Carpinetum festucoso-brachypodiosum, Carpinetum fillicosum* və s. kimi meşə tiplərinə rast gəlinmişdir. Meşə və ətraf ərazilərdə zəngin növ sayına malik birillik və çoxillik ot bitkiləri yayılmışdır. Onlardan *Tulipa karabachensis* Grossh., *Dactylorhiza flavescens* (C.Koch) Holub, *İris caucasica* Stev., *Scilla caucasica* Miscz., *Galanthus caucasicus* (Baker) Grossh., *Primula algida* Adams. və s. kimi növlər Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir.

Şuşaətrafı ərazilərdə (Kiçik Qafqazın mərkəzi hissəsi) əsas meşəəmələgətirən baş cinslər palıd, vələs, göyrüş və həmçinin azat ağaclarıdır. Bu meşələrdə ədəbiyyat məlumatlarına görə, *Quercus iberica* Stev., *Quercus macranthera* Fisch.et Mey., *Carpinus caucasica* A. Grossh., *Fraxinus excelsior* L., *Fagus orientalis* Lipsky., *Ulmus glabra* Huds., *Tilia caucasica* Rupr., *Taxus baccata* L., *Zelcowa carpinifolia* (Pall.) C.Koch, *Pyrus communis* L., *Malus orientalis* Uglitzk. kimi *Pistacia mutica* Fisch. et C.A.Mey., *Amygdalus fenzliana* (Fritsch) Lipsky ağac növləri yayılmışdır. Meşəaltı kollardan *Corylus avellana* L., *Sorbus torminalis* (L.) Grantz., *Sorbus caucasigena* Kom ex. Gat., *Mespilus germanica* L., *Grataegus sp*., *Rosa canina* L., *Sambucs nigra* L., *Euonymus latifolia* (L.) Mill. növlərinə rast gəlinir.

Kiçik Qafqazın mərkəzi hissəsinin meşələrində yayılmış ağac və kollardan *Taxus baccata* L. *Zelkowa carpinifolia* (Pall.) C.Koch, *Pistacia mutica* Fisch.et. C.A.Mey. kimi növlər Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir.

İşğaldan azad olunmuş ərazilərin meşə fondunda meşə ekosistemlərinin bərpası hazırda ən aktual məsələlərdəndir. Həmin ərazilərdə meşə təsərrüfatı tədbirləri həyata keçirilməlidir ki, bunlara təbii bərpaya kömək, müəyyən sahələrin ciddi mühafizəsi, ting və toxumla meşəbərpa işləri aiddir.

Şuşaətrafı ərazilərin meşə ekosistemlərinin bərpası işlərində həmin meşəbitmə şəraitinə uyğun və mümkün qədər ən yaxın ərazilərdən əldə olunmuş əkin və səpin materiallarından istifadə olunması meşələrin sürətli bərpasına zəmin yaradır.

Qeyd olunan ərazilərin aşağı və orta dağ qurşaqlarında *Quercus iberica* Stev., *Carpinus caucasica* A. Grossh., *Ulmus glabra* Huds., *Fagus orientalis* Lipsky., *Zelkowa carpinifolia* (Pall.) C.Koch, yuxarı dağ qurşağında *Quercus macranthera* Fisch et Mey., *Carpinus caucasica* A.Grossh., *Fraxinus excelsior* L., meşəaltı olaraq isə *Corylus avellana* L., *Sorbus torminalis* (L.) Grantz., *Mespilus germanica* L., *Grataegus* sp., *Rosa canina* L., *Cornus mas* L. və s. kimi növlərin istifadəsi məqsədəuyğundur.